Azərbaycan ordusu.- 2020.- 8 noyabr. S. 7.

# Qələbələr Böyük Qələbəyə yaxınlaşdırır

*Övlad üçün ən böyük örnək atadır. Ata kəlamlarını eşidir, atanın işi onun maraq dünyasını müəyyənləşdirir. Maraq dünyasının ötəri olduğunu düşünənlərlə heç zaman razılaşmamışam. Əgər maraq dünyası yeniyetmənin, gəncin gələcəyinin keçilməli yoludursa, əgər bu yol gəncin düşüncələrinin yoludursa, əgər bu yol Vətənin adına ad olursa, əlbəttə ki, ötəri ola bilməz...*



Kamran Qazaxda şəhid Nizami Hüseynov adına məktəbdə təhsil alırdı. Tay-tuşlarının çoxusu kimi yaxşı oxuyurdu, onların çoxusu kimi düşünmürdü. Onun özünəməxsus həyat fəlsəfəsi vardı. O da "Ömür xalq üçün, millət üçün yaşanılan aylardı, illərdi" deyənlərin, belə düşünənlərin sırasındaydı. Məktəbi bitirəndə bu söhbət onların imtahanaqədərki düşüncələrinin mahiyyətinə döndü. Biri həkim, digəri müəllim, o birisi mühəndis, ... olmağı qərara alıbmış. Onda Kamran heç nə deməyib. "Sən niyə heç nə demirsən? Yoxsa oxumaq istəmirsənmi?" soruşublar. Bir anlığa dillənməyib. Alnını ovuşdurub. Sonra budaqları az qala yerə dəyən ağaca söykənib. "Özüm basdırmışam. Zəlimxan Yaqub deyirdi ki, özün basdırdığın ağaca söykən. Bu söykəniş mənim qətiliyimin söykənişidir. Mən atam kimi hərbçi olacam...", - deyib.

Ötənləri xatırlamaq həmişə kövrəklik gətirir. Uğurları varsa, ömür yolunun bir parçasıdırsa, bu kövrəklik həm də qətiyyətə dönür. Qətiyyət isə ömrün istinadgahıdı elə bil...

- Atam Mustafa Sadıqov ehtiyatda olan zabitdir. Hərbçi olmaq istədiyimi ona bildirəndə çox sevinmişdi, qürurlanmışdı. "İstək azdı, oğul. İstəklə bərabər, sevgi də lazımdır. Seçdiyin peşəni sevməlisən. Hərbçi peşəsini sevirsənsə, sənə uğurlar arzulayıram...". Atamın bu kəlmələri mənim gələcəyimin nəsihətinə döndü. Həm peşə seçəndə, həm təhsil alanda, həm də hərbi xidmətdə ən böyük dəstəkçim atam oldu. Zabit kimi formalaşmağım həm təhsil aldığım məktəblə, zabitlərimlə, komandirlərimlə bağlıdır, həm də atamın məsləhətləri ilə.

Kamran Sadıqov onu da dedi ki, zabit kimi xidmətə başlayanda atamın bir məsləhətinə də söykəndim: yaxşı zabitin pis əsgəri olmur. "Əsgərlərin Hərbi anda sədaqətlə xidmət etməsi, həm də zabitin şəxsi nümunəsindən asılıdır. Mən də əsgərlərimin əsl vətəndaş kimi formalaşmasının cəfakeşi oldum.

Hərbi xidmətdə zabit-əsgər münasibəti həm də hərbi xidmətin mahiyyəti üçündür. Yəni, yaxşı zabit əsgərlərinin daxili aləminin, düşüncələrinin, maraq dünyasının bilicisi olmalıdır. Onda bölmədə olduqca gərəkli bir mühit yaranır. Mən ön xətdə xidmət etdiyim müddətdə belə bir mühitin əhatəsində olmuşam və indi ehtiyatda olan atama xəyalən demişəm: "Sağ ol, ay ata. Sağ ol ki, hərbçiyəm, sağ ol ki, sənin məsləhətlərinlə zabitəm ..."

Əks-hücum əməliyyatı Ali Baş Komandanın əmri ilə Azərbaycan torpaqlarını işğaldan azad edəcək döyüşlər kimi davam etdirilir. Neçə-neçə strateji yüksəklik, neçə-neçə yaşayış məntəqəsi, bu sıradan Suqovuşan, Hadrut qəsəbəsi, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri işğaldan azad edilib, o yerlərdən ermənilərin ayaq səsləri tamamilə kəsilib. Bir zabit kimi qürurlanıram ki, bu döyüşlərdə mən də iştirak etmişəm, əsgərlərim də iştirak edib. Qələbə qazanılanda qələbə bayrağını göy üzündə dalğalandıranların baxışlarında gördüyüm bənzərsiz sevgini son nəfəsiməcən unutmaram."

Vətən müharibəsi xalqın müharibəsidir. Ordu döyüşür, ordu döyüşürsə, xalq döyüşür. Ordu qələbələr qazanır, ordunun qazandığı qələbələr xalqın qələbələridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 20-də xalqa müraciətində dediyi fikirlər döyüşən əsgərlərin döyüş əzmini, qələbə ruhunu daha da kükrədir: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, şəhidlər veririk, öz ərazi bütövlüyümüzü bərpa edirik". Döyüşçülərimiz Azərbaycanımızı döyüş-döyüş Böyük Qələbəyə yaxınlaşdırır. Suqovuşanda, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda olduğu kimi, işğaldan azad ediləcək digər rayonlarımızda da qalibiyyət bayrağı dalğalanacaqdır. Zabitlər xidmətlərini qalib ordunun zabiti kimi davam etdirəcək, əsgərlər qalib əsgər kimi tərxis olunacaqlar!..

Döyüşlər davam edir. Vətən müharibəsində qələbə-qələbə işğalın sonuna yaxınlaşırıq...

**Kapitan**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**